# Odlar Yurdu Universitetinin akademik heyətə müraciət və qəbulun əsasları

Akademik heyətə qəbul üçün aşağıda göstərilən sənədlər elektron formada info@oyu.edu.az e-poçt ünvanına göndərilir və ya Odlar Yurdu Universitetinin Rektorluğuna təqdim edilir.

1. Odlar Yurdu Universiteti Rektorunun adına yazılmış ərizə (sərbəst formada)
2. Şəxsiyyət vəsiqəsinin surəti
3. Diplomların surəti (Bakalavr, Magistr, Elmlər namizədi, Fəlsəfə doktoru,Elmlər doktoru, Dosent, Professor)
4. CV / Tərcümeyi-hal
5. Elmi məqalələrin siyahısı: müəllifləri, məqalələrin adları, nəşr edildiyi jurnal, nəşr ili.
6. Konfrans çıxışları
7. Şəkil - 2 ədəd (3x4 sm)

Rektor bu sənədlər qovluğunu Prorektor vasitəsilə müvafiq kafedraya göndərir.

Müraciət edənin işə alınmasında əsas meyar olaraq onların xarici dil biliyi, elmi məqalələri, kompüter bacarıqlarının yetərli olması diqqətə alınır.

Müraciət qovluğu kafedrada araşdırıldıqdan sonra kafedranın qərarı ilə Rektorluğa təqdim edilir.

İşə qəbul üçün müraciət edənin ərizəsinə Rektor tərəfindən dərkənar qoyulduqdan sonra icra üçün İnsan Resursları Departamentinə göndərilir.